**Südabə Məzahir qızı Əliyeva** [109]

# MODALLIQ HADİSƏSİNİN MƏNTİQİ VƏ QRAMMATİK MAHİYYƏTİ HAQQINDA

Modallığın məntiqi və qrammatik kateqoriya kimi mahiyyətini daha dərindən araşdırmaq üçün ilk növbədə modallığın nə olduğunu müəyyənləşdirmək lazımdır. Modallıq deyimlə gerçəklik arasındakı müxtəlif əlaqələri ifadə edən qrammatik və semantik kateqoriyadır. Cümlə bitmiş fikir ifadə etməklə yanaşı eyni zamanda həmin fikrin həqiqətə münasibətini də ifadə edir. Buna görə də cümlənin əlamətləri dedikdə predikativlik və intonasiya ilə yanaşı modallığın da xüsusi rol oynaması nəzərə alınır. Hər bir cümlədə danışanın söylənilən fikrə münasibəti olur və bu münasibət modallıqla ifadə olunur. Heç bir cümlə modal münasibətsiz təsəvvür edilə bilmir. Ş.Balli qeyd edir ki, "Modallıq cümlənin canıdır. Bunsuz cümlə gerçəkliklə heç bir əlaqəsi olmayan ağlın gizlin təsəvvürünə uyğun gələrdi" [1, s. 31].

Cümlədə obyektiv aləmə məxsus bu və ya digər hadisə haqqında məlumat verilməklə yanaşı, danışanın söylədiyi fikrə müəyyən münasibət də olur. Belə demək mümkündürsə, hər bir cümlədə kommunikativliklə yanaşı ekpressivlik də olmalıdır. "Cümlənin emosional-ekspressiv funksiyası modallığı yaradır" [4, s. 81]. Modallıq kateqoriyası geniş anlayış olub dilçilikdə bir-birindən fərqli və ziddiyyətli fikirlərin təhlil obyekti olmuşdur. Dünya dilçiliyində modallığa müxtəlif təriflər verilmiş, bu kateqoriyanın mahiyyəti, spesifik xüsusiyyətləri müxtəlif cəhətlərdən tədqiq edilmişdir. Tədqiqatların çoxu modallığın tərkibinə, öz mahiyyətinə, funksiyasına, təyinatına, dil quruluşunun səviyyələrinə aidliyinə görə ən müxtəlif mənaları daxil edir və nəticədə modallıq kateqoriyası müəyyənlikdən məhrum olur.

Latın sözü olan modalite "ölçü", "üsul" deməkdir. Modallıq mühakimənin nə dərəcədə doğru olduğunu göstərən fəlsəfi kateqoriyadır. Aristotel modallıq anlayışından istifadə etsə də, klassik fəlsəfəyə sonralar daxil edilmişdir. Elm aləminə modallıq anlayışını ilk dəfə XVIII əsrdə alman filosofu İ.Kant gətirmişdir. İ.Kant modallığın xüsusiyyətlərinə görə mühakimənin növlərini ayırmışdır. Birbaşa insan təfəkkürü ilə bağlı olan bu hadisə təfəkkürün dillə vəhdətinə uyğun olaraq qrammatikaya gətirildi. Modallıq eyni dərəcədə dilçilik və məntiqin araşdırma predmetidir. Məntiqi və qrammatik modallıq bir-birinə çox yaxın anlayışlardır. Təfəkkür dillə necə qarşılıqlı əlaqədə və vəhdətdədirsə, məntiqi modallıqla qrammatik modallıq da eyni dərəcədə bir-birinə bağlıdır. Məntiqi modallıq mühakimələr arasında inkişaf edən reallığın, hadisələrin və gerçəkliyin fərqindən ibarət olduğu halda, dilçilik kateqoriyası olan qrammatik modallıq danışanın bəhs etdiyi obyektə, fikrə, hadisələrə münasibəti və bu münasibətin intonasiya, söz sırası, modal sözlər, feil şəkilləri, ara sözlər və s.kimi dil vasitələri ilə ifadəsidir.

Yuxarıda qeyd etdiyimiz kimi dilçilikdə modallıq dil vahidi kimi cümlənin ən vacib xarakteristikasına aiddirsə, məntiqdə o, təfəkkür forması kimi hökmün ən mühüm əlamətlərindəndir. Mühakimə, hökm cümlə vasitəsilə ifadə olunsa da, cümlənin modallıq anlayışı hökmün modallığından daha genişdir. Əşya, hadisə və onların əlamət, keyfiyyətləri haqqında verilən hökmü müsbət və ya mənfi şəkildə təsdiq edən modallıq fəlsəfi-məntiqi modallıqdır. Qrammatik modallıqda isə hökmün təsdiqi özünü müxtəlif formalarda göstərə bilər, məsələn güman, təsdiq, nəticə və s. Məntiqi modallıq mühakimə və hökmlərlə bağlıdır, hökm varlığın cisim və hadisələri arasında müəyyən əlaqə və münasibətlərin olub-olmadığını təsdiq və ya inkar etməkdən ibarətdir. İnsanlar daim öz hökmlərinin doğru və ya yalan olub-olmamasını yoxlamaq fikrindədirlər. Bu cəhətdən məntiqi-fəlsəfi modallığın 3 növü qeyd edilir: mümkünlük, gerçəklik, və zərurət. Mümkünlük hökmünə görə cisimlə onun əlamət və keyfiyyəti arasında olan əlaqə ehtimal xarakteri daşıyır. Bu cür hökmlərin həqiqiliyi yalnız təcrübə ilə yoxlanılır, dəqiqləşdirilir. Gerçəklik hökmü cisimlə onun əlamətləri arasında olan real, mümkün əlaqəni əks etdirir. Zərurət hökmü isə cisim və hadisələrin onların əlamətləri ilə arasında mövcud olan zəruri əlaqəsini əks etdirir. Bu münasibət məntiqdə hökmün ən yüksək forması hesab edilir. Modallıq məfhumu ilə nitqin, söyləmin həqiqətə münasibəti, başqa sözlə desək, söyləmdəki mühakimənin gerçəkliklə necə uyuşması, gerçəkliyə necə uyğun gəlməsi başa düşülür. N.Tusinin modallığa verdiyi tərifə nəzər salaq: "İstənilən predikat hər bir subyekt ilə - "insan canlıdır" və ya "yazardır" və ya "daşdır" deyimlərimizdə söylədiyimiz kimi müəyyən bir münasibətdədir; ya vacib olaraq, ya mümkün olaraq, ya da inkar ilə. Bu münasibət öz-zölüyündə maddədir. Tələffüz edilməklə, yaxud nisbətlə tələffüz edilmədikdə belə, təklifdən başa düşülən modallıqdır" [3, s. 61].

Modallığın dilçilikdə öyrənilməsi və araşdırılması uzun və çətin bir proses olmuşdur. Təbii ki, dilçilərin əksəriyyəti məntiq, psixologiya elmlərinə istinad etmişlər. Sadəcə modallığın özünün çoxplanlı və spesifik hadisə olması bu kateqoriya haqqında fikirləri mübahisəli və ziddiyyətli etmişdir.

Linqvistikada modallıq anlayışı haqqında ilk məlumata O.Axmanovanın terminlər lüğətində rast gəlinir. Dilçi modallıq anlayışının mənasını izah edərkən onu məfhumi kateqoriya adlandırır. Müəllifin fikrincə, modallıq dildə leksik və qrammatik vasitələrlə ifadə olunur. Modallığın təsnifini isə Axmanova belə göstərir: 1. Fərziyyəvi modallıq; 2. Feili modallıq; 3. İrreal modallıq; 4. İnkar modallığı.

Modallığın rus dilçiliyində araşdırılması, öyrənilməsi A.Şaxmatov, A.Peşkovski, V.Vinoqradov kimi dilçilərin adları ilə bağlıdır. A.Şapironun fikrincə cümlənin əsasını predikativlik qədər modallıq da təşkil edir. Çünki dildə xəbərlik forması olmayan, amma modallıq əlamətləri olan xüsusi cümlələr vardır ki, bunlara nida, alqış cümlələri aid edilə bilər. Predikativlik barədə danışan isveçrəli alim Şarl Balli modallıq anlayışına da diqqət yetirmişdir. Onun dikton və modus təlimi, obyektiv modallıq təlimi cümlənin əşyavi məzmununun gerçəklik ilə

[109] Bakı Dövlət Universitetinin magistrantı. sudabeyunusova19@gmail.com

uyğunluğuna əsaslanır. Modallığın bir kateqoriya kimi qeyd olunması V.Vinoqradovun adı ilə bağlıdır. "Duyğuları ifadə etmək və təsvir etmək olar, lakin modallığı təsviri şəkildə çatdırmaq mümkün deyil" [7, s. 38]. O da predikativlik anlayışını araşdırarkən predikativliyi cümlənin məzmununu gerçəklik ilə əlaqələndirən qrammatik kateqoriya adlandırır və predikativliyin özündə 3 əsas sintaktik kateqoriya: zaman, şəxs, modallıq kateqoriyalarını ehtiva etdiyini qeyd edərək belə tərif verir: "Modallıq danışanın söylədiyi fikrə münasibətidir". Müəllif qeyd edir ki, sintaktik modallıq feilin xəbər, lazım, əmr formalarına əsaslanır, amma o feili kateqoriyadan daha geniş anlayışdır, çünki ifadə vasitələrinə əlavə modal sözlər də daxildir. V.Vinoqradov həmçinin, modallığın iki tipini göstərir: obyektiv modallıq və subyektiv modallıq.

Dünya dilçiliyində modallıq anlayışına müxtəlif baxışlar olmuşdur. Bəzi dilçilər modallığı geniş, bəziləri isə dar mənada təqdim etmiş, modallığın ümumi mahiyyətini eyni təqdim etmələrinə baxmayaraq onun növlərini aydınlaşdırmaq üçün müxtəlif təsnifatlar irəli sürmüşdürlər. V.Şabalina modallığın vasitəli və vasitəsiz növlərini göstərərək, fərqlərinin cümlədə söylənilən fikrin rəngarəngliyindən asılı olduğunu qeyd etmişdir. Y.Kraşeninnikova modallığın 3 növünü göstərir: 1.inikas modallığı; 2. arzu modallığı; 3. problematik modallıq. İ.Raspopov isə cümlənin məqsəd və intonasiyasına görə növləri olan sual, nəqli və əmr cümlələrini cümlənin modallığa görə növləri hesab edirdi.

Türkologiyada da qrammatik kateqoriya kimi modallığa diqqət ayrılmışdır. Bu sahədə Baskakov, A.Kononov, M.Zaynulli, Ubryatova kimi dilçilərin adlarını çəkmək olar. Türkoloqların əksəriyyəti modallığı feilin şəkilləri ilə əlaqələndirərək onu morfoloji kateqoriya hesab etmişdir.

Modallıq kateqoriyasını ardıcıl şəkildə araşdıran F.Cahangirov modallığa bu şəkildə yanaşır: " Modallıq kateqoriyası müxtəlifsistemli dillərdə ünsiyyəti təmin edən ən mühüm dil hadisələrindəndir. Bu kateqoriya dilin ifadə planından tutmuş onun məzmun planınadək, dilin adlandırma ( işarəetmə) funksiyasından tutmuş onun ifadəetmə (kommunikativ) funksiyasına qədər bir çox məsələləri əhatə edir" [2, s. 6]. Dilçilik ədəbiyyatında modallığın 2 tipi göstərilir: **subyektiv** modallıq və **obyektiv** modallıq. Cümlələri modallığa görə təsnif etdikdə ifadə məqsədi və intonasiya deyil fikrin ifadə tərzi əsas götürülməlidir. Obyektiv modallıq anlayışında modallıq cümlədə verilən fakt, hadisə, məlumat, obyektiv reallıqla əlaqədir, burada hadisənin reallığı düşünülür. Real modallıq müəyyən zamanla əlaqəli olur. Subyektiv modallıqda danışam deyilən fikrə, verilən məlumata münasibətini də bildirir. Subyektiv modallıq bəzən ikinci modallıq da adlandırılır. Obyektiv modallıq dedikdə reallıq və qeyri-reallıq, mümkünlük və qeyri-mümkünlük, zərurilik və ehtimallıq nəzərdə tutulur. Suyektiv modallığa inam və inamsızlıq, razılıq və narazılıq, ekspressiv qiymətləndirmə aid edilir. Obyektiv modallığın ifadəsinə xidmət edən qrammatik vasitələrə feilin şəkilləri, zamanları, intonasiyanın müxtəlif növləri, subyektiv modallığın ifadəsinə xidmət edən linqvistik vasitələrə söz sırası, intonasiya, leksik təkrarlar, modal sözlər, ədatlar, nidalar, ara söz birləşmələri və ara cümlələr aiddir. Qeyd edə bilərik ki, subyektiv modallıq kateqoriyası dilin antroposentrik xüsusiyyətini ehtiva edir.

F.Cahangirov, K.Kruşelnitskaya, Q.Zolotova, L.Yermolayev modallığın 3 növü olduğunu irəli sürən dilçilərdəndir. Onların fikrincə subyektiv və obyektiv modallıqla yanaşı **törəmə tipli** deyilən modallıq anlayışı da mövcuddur. Obyektiv modallıqda danışanın mövqeyindən cümlənin məzmununun həqiqətə uyğunluğu ifadə olunur. Subyektiv modallıqda danışanın cümlənin məzmununa münasibəti əks olunur. Törəmə tipli modallıq isə mürəkkəb sturkturludur. Burada əlamətin daşıyıcısı olan subyektlə predikativ əlamət arasında əlaqənin həqiqiliyinə münasibət bildirilir. Bəzi dilçilər bu prosesi fərqli anlayışlarla ifadə edirlər, **daxili modallıq** və **xarici modallıq** terminlərindən istifadə edirlər. Xarici modallığa subyektiv və obyektiv modallığı, daxili modallığa isə subyektin icra etdiyi i.ə münasibətini aid edirlər.

"Modallıq gah qrammatik, gah leksik, gah intonasiya səviyyəsində, gah da bütün söyləm səviyyəsində reallaşdırılır və müxtəlif ifadə vasitələrinə, o cümlədən leksik və qrammatik vasitələrə malikdir" [5, s. 26]. Obyektiv modallığın ifadə vasitələrinə feilin şəkilləri, zamanları, intonasiya; subyektiv modallığın ifadə vasitələrinə söz sırası, intonasiya, modal sözlər, ədat, ara sözlər və ara cümlələr aid edilir.

Obyektiv modallığın daxilindən subyektiv amillər də mövcuddur. Çünki hər hansı obyektiv məlumat müəyyən bir subyekt tərəfindən verilir və subyektin xüsusiyyətləri verilən məlumatda az və ya çox dərəcədə öz əksini tapa bilər.

Modallığı nitqin köməkçi, bəzək ünsürü hesab edən Z.Budaqova da sadə cümlənin əlamətlərindən biri kimi modallığı izah edərkən modallığın 3 növünü göstərir: həqiqi modallıq, zərurət modallığı, ehtimal modallıq. Z.Budaqova qeyd edir ki, cümlələri modallıq əlamətinə görə təsnif edərkən ifadə məqsədini deyil, fikrin ifadə tərzini əsas götürmək lazımdır. Yəni cümlədə söylənilən fikir nə şəkildə öz ifadəsini tapırsa, buna da uyğun olaraq modallıq formalaşmalıdır.

Obyektiv reallıq müəyyən bir iş, əşya, əlamət, keyfiyyət və s haqqında həqiqi bir şəkildə məumat verir. Obyektiv reallıq təsdiq və inkarda olur, həm ismi, həm də feili cümlələrlə ifadə olunur. Lakin feili cümlələrdə modallıq ismi cümlələrdəki modallıqdan fərqlidir. Belə cümlələrdə zaman və şəkil kateqoriyaları modallığın qrammatik ifadə vasitəsi kimi çıxış edir.

Subyektiv modallıq cümlədə obyektiv modallıqla uzlaşa bilər. "Bütün cümlələrdə əslində bu və ya digər dərəcədə danışanın subyektiv münasibəti öz əksini tapır və buna görə də onu sintaktik kateqoriyalardan biri hesab etmək olar" [6, s. 19]. Subyektiv modallıq universal kateqoriya da sayıla bilər. Belə ki, onun bütün tipləri bir tərəfdən obyektiv modallığın bütün tipləri ilə uzlaşa bilir, eyni zamanda bu uzlaşma tiplər arasında da ola bilər.

Real obyektiv modallıq söyləmin gerçəkliyə münasibətində etibarlılıq dərəcəsini bildirir. Onun xüsusi qrammatik əlaməti yoxdur, bu funksiyanı feilin xəbər formasının şəkilçiləri yerinə yetirir. Feil formalarında qətilik və qeyri-qətilik mənaları müşahidə olunur ki, bu da modal ifadənin gerçəkliyə münasibətinin etibarlılıq dərəcəsinə öz təsirini göstərmiş olur. Lakin feil formaları modallığı qabarıq şəkildə əks etdirə bilməz. Buna görə də digər qrammatik vasitələrdən və modallıq bildirən leksik vahidlərdən istifadə olunur.

Qeyri-real modallıq arzu, niyyət, məqsədin həyata keçməsinə vadar edən feil şəkilləri ilə - əmr, arzu, vacib, şərt şəkilləri ilə əmələ gəlir.

Təsdiq modallığı qrammatik yolla, yəni şəxs-xəbərlik şəkilçisi vasitəsilə əmələ gəlir. Bu şəkilçi feilin xəbər, vacib, arzu şəkillərində olan sözlərə artırılaraq təsdiq formada olan sadə cümlələri əmələ gətirir.

İnkar modallığı da leksik və qrammatik vasitələrin köməyi ilə, həmçinin intonasiya ilə ifadə olunur. İnkar intonasiyası cümlədəki inkar sözün tələffüzü zamanı tonun aşağı düşməsi ilə səciyyələnir.

Modallığın fəlsəfi-məntiqi və linqvistik təhlili göstəriri ki, modallıq cümlənin formalaşmasında iştirak edən zəruri element kimi cümlədəki obyektiv və subyektiv münasibətləri ifadə edən mühüm dil kateqoriyasıdır. Eyni zamanda əlavə edə bilərik ki, modallıq insanlar arasında ünsiyyəti təmin edən və tənzimləyən kateqoriya kimi də diqqəti cəlb edir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası. 1963, 224 s.
2. Cahangirov F. İngilis və Azərbaycan dillərində modallığın struktur-semnatik tədqiqi. Bakı: Elm, 2005, 281 s.
3. Xacə Nəsirəddin Tusi. Təsrid əl-məntiq (ərəb dilindən tərcümə və şərhlər) Bakı: Araz, 2012, 260 s.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, 496 s.
5. Rəcəbli Ə. İngilis dilində modal feillər. Bakı: Elm və təhsil, 2016, 238 s.
6. Vəliyev S. Sadə cümlə. Bakı: Elm, 1997, 82 s.
7. Виноградов В. В. О категории модальности и модалных словах в русском языке//Труды Института русского языка АН СССР. – Москва, 1950, с. 38-7



**Ключевые слова:** Модальность, Логическая модальность, Грамматическая модальность, Объективная модальность, субъективная модальность

**Key words:** modality, logical modality, grammatical modality, objective modality, subjective modality


## Логическая и грамматическая сущность модальности


**Резюме**

Модальность — это важное языковое явление, выражающее отношение высказывания к действительности и отношение говорящего к сказанному. Каждое предложение отражает определенное модальное отношение, которое проявляется в логической и грамматической структуре. Философский и логический анализ модальности был исследован многочисленными философскими школами, особенно Аристотелем и Кантом, которые ввели концепцию модальности в философию. В языкознании модальность делится на логическую и грамматическую. Логическая модальность отражает отношение суждения и утверждения к действительности, а грамматическая модальность выражается через языковые средства. Исследование модальности является сложным и долгим процессом в языкознании, в котором устанавливаются связи с другими науками. Модальность - это категория языка, выражающая объективные и субъективные отношения в предложении. Она реализуется через грамматические, лексические и интонационные средства. Объективная модальность связана с фактами и событиями, отражая их отношение к реальности. Субъективная модальность отображает отношение говорящего к высказанному, такие как уверенность или сомнение. Обе модальности выражаются через различные грамматические средства, такие как формы глаголов, порядок слов и интонация. Среди типов модальности выделяются реальная, необходимая и вероятная модальность, а также модальность утверждения и отрицания.


## The logical and grammatical essence of modality


**Summary**

Modality is an important linguistic phenomenon that expresses the relationship of a statement to reality and the speaker’s attitude towards what is said. Every sentence reflects a certain modal relationship, which is manifested in both the logical and grammatical structure. The philosophical and logical analysis of modality has been explored by many philosophical schools, especially by Aristotle and Kant, who introduced the concept of modality into philosophy. In linguistics, modality is divided into logical and grammatical. Logical modality reflects the relationship of judgments and assertions to reality, while grammatical modality is expressed through linguistic means. The study of modality is a complex and lengthy process in linguistics, establishing connections with other sciences. Modality is a linguistic category expressing both objective and subjective relations in a sentence. It is realized through grammatical, lexical, and intonational means. Objective modality is related to facts and events, reflecting their relationship to reality. Subjective modality shows the speaker’s attitude towards what is said, such as certainty or doubt. Both modalities are expressed through various grammatical tools, including verb forms, word order, and intonation. Types of modality include real, necessity, and probability modalities, as well as affirmation and negation modality.



**Rəyçi:** dos. İsmayıl Məmmədov